**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**«Banк işi»kafedrası**

**«Banк işi»kafedrasının müdiri , i.e.d., prof. Z.F.Məmmədov**

Maliyyə-kredit ixtisası üzrə bakalavr pilləsində təhsil alan
ali məktəb tələbələri üçün buraxılış işlərinin yerinə yetirilməsinə dair

# METODİK GÖSTƏRİŞ

**Bakı 2014**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-metodik şurası «İqtisadiyyat» bölməsinin « 27 noyabr» 2002-ci il tarixli, 06 №-li protokoluna əsasən çap edilir.

Metodik göstərişlər Azərbaycan Dövlət İqtisad Universitetmin Tədris-Metodik Şurasının 24 aprel 2002-ci il tarixli iclasının 5 saylı protokol qərarı ilə çapa tövsiyyə edilmişdir.

Azərbaycan Dövlət İqtisad Universitetmin 11 oktyabr 2013- ci il tarixli iclasının 2 saylı protokol qərarı ilə əlavə və dəyişikliklər edilməklə yenidən hazırlanmışdır..

## G i r i ş

Təqdim olunan göstəriş tələbələr üçün faydalı və yararlı olacaqdır. Belə ki, professor-müəllim heyəti tələbələr üçün buraxılış işi üçün tapşırıqlar hazırlayır və tapşırıqların yerinə yetirilməsinə nəzarət edir, tələbələr isə elmi-tədqiqat fəaliyyətinin texnikasını mənimsəyirlər.

Göstəriş Təhsil Nazirliyinin Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması qaydalarına müvafiq olaraq tərtib olunub.

Buraxılış işinin yerinə yetirilməsi Azərbaycan Dövlət İqtisad Universitetində bakalavr təhsili üzrə hazırlığın əsas mərhələsi kimi çıxış edir və tələbələr tərəfindən ümumnəzəri, ixtisas fənllərinin, özəlliklə bank fəaliyyətinin praktiki aspektlərinin kompleks öyrənilməsinə əsaslanır.

Buraxılış işinin hazırlanması və dövlət müdafıə komissiyası qarşısında müvəffəqiyyətlə müdafıəsi, məzuna ali iqtisad təhsili haqqında dövlət nümunəvi diplomun verilməsi üçün əsas hesab olunur.

Buraxılış işləri bakalavr pilləsində tələbələrin təhsilinin son mərhələsi olmaqla aşağıdakı məqsədləri daşıyır:

Buraxılış işləri bakalavr pilləsində tələbələrin təhsilinin son mərhələsi olmaqla aşağıdakı məqsədləri daşıyır:

- istiqamət (ixtisas) üzrə alınan nəzəri və təcrübi biliklərin sistemləşdirilməsi, möhkəmlənməsi və genişləndirilməsi, analitik və yaradıcı düşüncənin inkişaf etdirilməsi, konkret standart məsələlərin həlli vərdişlərinin aşılanması, eləcə də onların texniki-iqtisadi, istehsalat və mədəni quruculuq məsələlərinə tətbiqi;

- müstəqil işləmək vərdişlərinin inkişaf etdirilməsi, eləcə də buraxılış işlərində qoyulan problem və sualların həllinin araşdırılması metodlarına yiyələnmək;

- tələbələrin müasir istehslatın, elmin, texnikanın və mədəniyyətin müvafiq sahələrində müstəqil işləməyə hazırlığı səviyyəsini müəyyənləşdirmək;

Buraxılış işlərinin müdafiəsi tələbələrin yekun dövlət attestasiyasının bir hissəsi olmaqla, həm də onların son attestasiyasıdır. Bu attestasiyanın nəticəsinə görə məzuna ixtisas dərəcəsi verilir.

Beləliklə, buraxılış işləri bir qayda olaraq elmi və ya praktiki əhəmiyyətə malik olmalıdır.

Bütün attestasiya sınaqlarından, o cümlədən müəyyən fənn üzrə dövlət imtahanından və ya fənlərarası yekun imtahanından müvəffəqiyyətlə çıxmış bakalavr tələbələr buraxılış işinin müdafiəsinə buraxılırlar.

Bu metodık gostərışlə, buraxılış ışlərınə rəhbərlık edən professor-müəllim heyətinə metodik yardım olunması, habelə tələbələrə mövzunun seçilməsi, yazılması, rəsmiləşdirilməsi və müşayiət sənədlərinin hazırlanması işində kömək üçün nəzərdə tutulmuşdur.